# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞİ KİMİ KİMYADAN EKSPERİMENTLƏRİN PROBLEMLİ TƏLİM METODİKASI İLƏ TƏDRİSİ

**A.C. Mahmudova**

*Gəncə Dövlət Universiteti, doktorant*

Ümumtəhsil məktəblərində hal-hazırda kimyanın tədrisinin qarşısında qoyulan əsas məqsəd şagirdlərin şəxsiyyət kimi formalaşmasıdır.

Bu məqsədə isə təlim prosesində şagirdlərin müstəqil fəaliyyətinin aktivləşdirilməsi ilə çatmaq olar. Yəni şagird praktiki materialı müstəqil təhlil edir, əvvəllər əldə etdiyi bilikdən istifadə etməklə kimyəvi hadisələrə aid yeni bilik və bacarıq əldə edir, müqayisə və ümumiləşdirmə aparır.

Kimyanın tədrisində şagirdlərin fəal anlama fəallıqları olmadan yaxşı nəticə əldə etmək mümkün deyil. Kimya müəllimi şagirdlərin dərketmə (anlama) fəallıqlarının təşkilatçısı kimi dərsdə iştirak etməlidir. Buna isə müxtəlif növ təlim texnologiyalarından istifadə etməklə nail olmaq olar. Bu təlim texnologiyaları, problemli, interaktiv təlim, komputer texnologiyaları və s. ola bilər, onların isə məqsədi şagirdlərin təlim fəaliyyətini aktivləşdirməkdir. Kimya fənninin obyekti, maddə və maddi aləm olduğu üçün kimyanın tədrisində laboratoriya və praktik işlərin problemli təlim texnologiyalarından istifadə etmək üçün geniş imkanlar vardır. Buna görə də problemli təlim texnologiyasından kimya dərslərində şagirdlərin dərketmə fəaliyyətini aktivləşdirmək üçün istifadə etmək olar.

Problemli təlim metodunda kimya müəllimi şagirdləri həmişə problemin həllinə qoşa bilir, çünki problemli təlim inkişafetdirici təlimdir. Kimya müəllimi problemli təlim metodu tətbiq etdikdə şagirdlər yeni materialın izahına malik olmurlar, materialın üzərində müstəqil işləyirlər.

VII və VIII siniflərin kimya kursunda kimyəvi anlayışlar, qanunlar, kimyadan müxtəlif növ məsələlərin həlli üsulları və onlara aid nəzəri materiallar verilmişdir.

Bu siniflərdə kimyanın tədrisi zamanı şagirdlər, biliyi tətbiqetmə, laboratoriya və praktiki işləri aparmaq, kimyadan müxtəlif növ məsələləri həll etmək bacarığı əldə edirlər.

VII-VIII sinif şagirdləri kimyadan eksperimentlər apararkən, müşahidə və müqayisə etmək, praktiki işlərin nəticələrini hesabat formasında təqdim etmək, alınan nəticələri ümumiləşdirmə bacarıqları nümayiş etdirirlər.

Kimya eksperimental fənn olduğu üçün kimyanın tədrisinin əsasında kimyəvi biliklərin mənbəyi, onlara nəzarət, ideyaların irəli sürülməsi, təsdiqi və onlara əsaslanan kimyəvi eksperiment durur.

Təlimin əsas məqsədinə nail olunmasında kimya eksperimenti didaktiv vasitədir. Kimyadan nəzəriyyə və eksperimentin möhkəm qarşılıqlı əlaqəsi vasitəsi ilə şagirdlər dərin bilik və bacarıq əldə edə bilərlər və bu bacarıqları inkişaf etdirmək olar. Kimya təlimində eksperimentdən (laboratoriya və praktiki işlərdən) sistematik istifadə edildikdə şagirdlərin kimyəvi faktları və hadisələri müşahidə etmək bacarığı formalaşır və bu hadisələri kimyəvi nəzəriyyə və qanunlar əsasında şərh edirlər.

Şagirdlər kimyəvi ekperiment (laboratoriya və praktik işlər) aparmaq üçün kimyadan ilk dərslərdən maddələrlə, eksperiment aparılacaq cihazlarla və onlara aid avadanlıqlarla işləmək üçün ilk növbədə təhlükəsizlik qaydalarını bilməli, kimya eksperimentini müşahidə etməyi və nəticə çıxarmağı bacarmalıdırlar.

Kimyadan eksperimentlər (laboratoriya və praktiki işlər) yeni mövzunun dərk edilməsi prosesində mövzuya aid nəzəri əsasların yoxlanılması və təsdiqi məqsədi ilə müəllimin rəhbərliyi ilə aparılır. Bu cür eksperimentlər qısa müddətli (3-4 dəq) olur, kimyəvi reaksiyaların bəzi əlamətləri nümayiş etdirilir.

Yeni mövzunun öyrənilməsi üçün də laboratoriya işləri aparılır. Şagirdlər laboratoriya avadanlıqları və cihazlardan istifadə etməklə təhlükəsizlik qaydalarına əməl etmək şərti ilə müəllimin tapşırdığı laboratoriya təcrübələrini yerinə yetirə bilərlər. Laboratoriya işləri müəllimin göstərişi əsasında aparılır və 5-10 dəqiqədən 40 dəqiqəyədək müddət ərzində yerinə yetirilə bilər. Laboratoriya dərslərində şagirdlər yeni mövzunu daha geniş surətdə eksperiment əsasında öyrənirlər. Laboratoriya işləri müəllimin rəhbərliyi ilə fərdi, qrup və ya kollektivlə aparıla bilər, bu işlərin əsasında şagirdlərdə təcrübə aparmaq bacarığı və vərdişlər formalaşır. Şagirdlərin mövzuya aid biliklərinin dərinləşməsi, sistemləşdirilməsi, möhkəmləndirilməsi, praktiki işlər aparmaq bacarıqlarının, vərdişlərinin formalaşdırılması və inkişaf etdirilməsi məqsədi ilə praktiki işlər aparılır. Praktiki işlər – şagirdlərin fəaliyyətini istiqamətləndirən təlimatla və eksperimental məsələləri həll etməklə aparılır.

Eksperimental məsələlərin həlli zamanı hər bir şagird müstəqil olaraq məsələni həll etmək üçün plan qurur və həll edir.

Şagirdlərin dərketmə fəaliyyətinin, nəzəriyyə ilə praktikanın əlaqəsinin dərk olunmasına, mövzunun məzmunu ilə bağlı olan bilik və bacarıqların formalaşmasına kimyanın tədrisində eksperimentlərin problemli təlim metodu ilə həyata keçirilməsi yaxşı şərait yaradır.

Ümumtəhsil məktəblərində problemli təlim metodu, a) ziddiyyətlə uyğunlaşan mürəkkəblik, zəngin məzmun, kimyanın məntiqinə uyğun cəlbedici, problem situasiyaya dair çətinlik yaradan tələblərə uyğun problem sualların

hazırlanması, b) problem sualın çətinləşdirilməsi, onun həllinin çox tərəfli olması, müxtəlif həll variantlarının müqayisəsi ilə problem sualın, problem situasiyaya çevrilməsi, c) problemin müzakirəsi, problem məsələ və çalışmalar, tədqiqatlar vasitəsi ilə problem situasiyanın müxtəlif həlli üsulları, d) tədris olunan materialın xüsusiyyəti, pedaqoji məqsədi, problem situasiyanın yaradılmasında şagirdlərin şəxsi maraqlarının inkişaf etdirilməsi vasitəsi ilə problem situasiya yaratmağın əsasları, e) problem dərslər sisteminin yaradılması mərhələləri üzrə həyata keçirilə bilər.

Şagirdlərdə ziddiyyətli problemləri həll etmək bacarığının formalaşmasına problem situasiyanın tətbiq edilməsi yaxşı şərait yaradır.

Problemli təlim metodunun tətbiq olunduğu laboratoriya və praktiki işlərə dair bir dərs nümunəsi verək.

*Mövzu:* Elektrolitik dissosiasiya.

*Məqsəd:* Turşu, əsas və duzların dissosiasiya prosesinin mahiyyətini izah etmək, onların məhlulunda yaranan mühiti təyin etmək.

*İnteqrasiya*: Fizika fənni ilə.

*Resurslar:* Dərslik, sulfat turşusu, kalium-hidroksid məhlulu, kalium-sulfat məhlulu, lakmus kağızı.

Şagirdlərdə mövzuya aid motivasiya yaradıldıqdan sonra aşağıdakı tədqiqat suallarını verə bilərsiniz.

1) Sınaq şüşəsinə 3-4 damcı sulfat turşusu məhlulu tökün və onun üzərinə lakmus kağızı əlavə edin. Nə müşahidə etdiniz? Müşahidə etdiyiniz hadisənin səbəbini izah edin.

2) Sınaq şüşəsinə 3-4 damcı kalium-hidroksid məhlulu tökün və üzərinə lakmus kağızı əlavə edin. Nə müşahidə etdiniz? Baş verən hadisənin səbəbini izah edin.

3) Sınaq şüşəsinə 3-4 damcı kalium-sulfat məhlulu tökün və üzərinə lakmus kağızı əlavə edin. Nə müşahidə etdiniz? Baş verən hadisənin səbəbini izah edin.

Verilmiş praktik tapşırıqlar ya cütlərlə, ya da 3-5 şagirddən ibarət qruplarla aparılır.

Təcrübənin sonunda şagirdlər 1-ci sınaq şüşəsində lakmusun qırmızı, 2-cidə göy rəngə boyandığını və 3-cü də isə lakmusun rəngini dəyişmədiyini müşahidə edirlər. Şagirdlər qeyri-üzvi maddələrin xassələrinə aid müəyyən biliyə malik olduqlarından baş verən hadisələr onlarda problem yaratmır. Bundan sonra kimya müəllimi "1-ci, 2-ci sınaq şüşəsində lakmusun rənginin dəyişməsinin, 3-cü də isə dəyişmədiyini necə izah edərdiniz" kimi problem sual verir.

Müəllim şagirdlərin problem sualı cavablandırmaqda müəyyən çətinliklər olduğunu görərək tədqiqatda istifadə edilən maddələrin ($H_2SO_4$, KOH, $K_2SO_4$) dissosiasiya tənliklərini lövhədə şagirdlərdən birinə yazdıraraq bütün sinfə nümayiş etdirir.

$H_2SO_4 \rightleftarrows 2H^+ + SO_4^{2-}$;
$KOH \rightleftarrows K^+ + OH^-$ ;
$K_2SO_4 \rightleftarrows 2K^+ + SO_4^{2-}$

Bundan sonra şagirdlər turşular üçün ümumi ion olan $H^+$ ionunun lakmusu qırmızı, qələvilər üçün ümumi ion olan $OH^-$ ionun lakmusu göy rəngə boyadığını söyləyirlər. Duzlar üçün isə ümumi ion olmadığından onların məhlulu lakmusa təsir etmir.

Problem situasiya kimyanın eksperimental məsələlərin həlli modelidir. Eksperimental məsələlər hesablama məsələlərindən fərqli olaraq şagirdlərdən kimyanın nəzəri əsaslarını, qanun və qanunauyğunluqlarını və onların əsasında praktik qabiliyyətə (bacarıq və vərdişə) malik olmalarını tələb edir. Şagirdlər kimyadan eksperimental məsələlər həll etməklə aldıqları bilikləri dərinləşdirir, laboratoriya və praktik işlərin aparılması üçün bacarıq və vərdişləri inkişaf edir, aldıqları bilikləri praktikaya tətbiq etməyi bacarırlar.

İndi isə şagirdlərin kimyadan aldıqları biliklər əsasında eksperimental məsələləri həll etmək bacarıqlarının inkişaf etdirilməsinə aid bir məsələ və onun həllini izah edək.

Kalsium – bromidin tərkibindəki ionların təyini reaksiyalarını eksperimentlə aparın, bu reaksiyaların molekulyar, tam və qısa ion tənliklərini yazın.

Eksperimental məsələlər təlimatı olmayan praktiki iş olduğu üçün şagirdlər onun həllinə aid planı özləri qururlar.

1) Duzun dissosiasiya tənliyi:

$CaBr_2 \rightleftarrows Ca^{2+} + 2Br^-$

2) $Ca^{2+}$ və $Br^-$ ionlarını təyin edən reaktivlərin seçilib hazırlanması.
3) $Ca^{2+}$ və $Br^-$ ionlarının təyini üçün təcrübənin aparılması.

Eksperimentin aparılması ardıcıllığı;

Sınaq şüşəsinə 2-3 ml $CaBr_2$ məhlulu tökülür və üzərinə 1-2 ml natrium-karbonat məhlulu əlavə edilir bu zaman ağ rəngli $CaCO_3$ duzu çökür.

Baş verən reaksiyanın tənlikləri:

$CaBr_2 + Na_2CO_3 \longrightarrow CaCO_3 \downarrow + 2NaBr$ molekulyar tənlik.
$Ca^{2+} + 2Br^- + 2Na^+ + CO_3^{2-} \longrightarrow CaCO_3\downarrow + 2Na^+ + CO_3^{2-}$ tam ion tənliyi
$Ca^{2+} + CO_3^{2-} \longrightarrow CaCO_3 \downarrow$ qısa ion tənliyi.

Bu reaksiya ağ çöküntü ilə $CaBr_2$-dəki $Ca^{2+}$ ionu təyin olundu.

Bromid ionunu təyin etmək üçün alınan $CaCO_3$ çöküntüsü süzülüb götürülür. Ayrılmış NaBr məhlulu üzərinə 1-2 ml gümüş (I) nitrat məhlulu əlavə olunur. Bu zaman sarımtıl çöküntü ayrılır.

$NaBr + AgNO_3 \longrightarrow AgBr\downarrow + NaNO_3$ molekulyar tənlik
$Na^+ + Br^- + Ag^+ + NO_3^- \longrightarrow AgBr\downarrow + Na^+ + NO_3^-$ tam ion tənliyi
$Br^- + Ag^+ \longrightarrow AgBr\downarrow$ qısa ion tənliyi
sarımtıl
çöküntü

Deməli, bu reaksiya ilə də $Br^-$ionu təyin edildi.

Beləliklə, bu cür eksperimental məsələləri şagirdlərə həll etdirməklə kimya dərslərində problem situasiya metodundan istifadə etmək olar.

## İstifadə edilmiş ədəbiyyat:

1. M.M.Abbasov, V.M.Abbasov və b. Kimya, Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik, Aspoliqraf, 2019, 200 səh.
2. M.M.Abbasov, A.H.Əliyev, C.Cəlilova 8-ci sinif, müəllimlər üçün metodik vəsait. Aspoliqraf, 2019, 194 səh.
3. Э.Е.Золотников. Химический эксперимент в условиях развивающего обучения. Химия в школе, 2001, №1, ст.35-42.
4. Е.Ю.Васюкова, П.А.Оржековский. к решению проблем повышения осознанности знаний. Химия в школе, 2010, №6, ст. 18-22.

*А.Дж.Махмудова*

**Преподавание путем использования методики проблемного обучения экспериментов по химии как самостоятельная работа учащихся в общеобразовательных школах**

**РЕЗЮМЕ**

В статье обсуждается роль проблемной обучающей технологии в формировании учащихся как личность и активизации их самостоятельной деятельности на уроках химии.

*A.J. Mahmudova*

**Teaching by using the methodology of problem-based teaching of experiments in chemistry as an independent work of students in secondary schools**

**SUMMARY**

This article describes flu role of problematic training technology in forenation of students as a personality, intensification of fluir independent activities at chemistry lessons.

**Açar sözlər:** problem situasiya, laboratoriya işi, praktiki iş, eksperimental məsələ, problemli təlim.

**Ключевые слова:** проблемная ситиация, лабораторная работа, практическая работа, экспериментальная задача, проблемное обучение.

**Key words:** problematic situation, laboratory practical work, experimental task, work, problematic training.